# “İqlim diplomatiyasında dönüş nöqtəsi”

## *Dünya mediası COP29-un nəticələrini geniş işıqlandırıb*

***Türkiyə mətbuatı Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunlarını geniş işıqlandırıb. Belə ki, ”Haber Global” telekanalı Bakıdan hazırladığı reportajda COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə üçün ildə 300 milyard dollar sərmayə qoymağa hazır olduqlarını elan edən inkişaf etmiş ölkələrin öhdəliklərinə diqqət çəkib.***

Reportajda qeyd olunur ki, Bakıda ikihəftəlik intensiv danışıqlar ”iqlim maliyyələşməsi”nin həcminin mərhələli artırılması ilə bağlı mühüm razılığın əldə olunmasına imkan verib.

Telekanal COP29-u ”iqlim diplomatiyasında dönüş nöqtəsi” adlandıran Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına diqqət çəkib və bu məsələ ilə bağlı ekspert qiymətləndirmələrini də təqdim edib. ”Anadolu” xəbər agentliyi, həmçinin COP29 çərçivəsində ”iqlim maliyyələşməsi” mövzusunda fəal müzakirələrə, eləcə də Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə töhfəsinə diqqət çəkib.




























Qardaş ölkənin aparıcı informasiya agentliyi Prezident İlham Əliyevin ”Yaşıl dünya naminə həmrəylik” şüarını rəhbər tutaraq, Azərbaycanın vicdanlı vasitəçi kimi çıxış etdiyini və iqlim danışıqlarına qərəzsiz dəstəklənməsi üçün bütün imkanlardan istifadə etdiyi barədə bəyanatından sitat gətirib. Agentlik, həmçinin Azərbaycanda iqlim sammitinin təşkilinin səviyyəsini yüksək qiymətləndirən Bosfor Universitetinin professoru Levent Kurnazın qiymətləndirməsini də qeyd edib.

Ekspert qeyd edib ki, Türkiyə COP29-da iştirakı sayəsində qardaş ölkənin bu cür irimiqyaslı tədbirlərin təşkili təcrübəsini, o cümlədən Ankaranın COP31-ə ev sahibliyi etmək üçün müraciəti fonunda öyrənmək imkanı əldə edib.

Eyni zamanda, L.Kurnaz iqlim dəyişiklikləri ilə mübarizədə Qərb ölkələrinin yekun öhdəliklərini qeyri-kafi adlandırıb. Ekoloji xəbərlər üzrə ixtisaslaşmış ”Yeşil Gazete” (”Yaşıl Qəzet”), eləcə də bir sıra digər nəşrlər iqlim dəyişiklikləri ilə mübarizə ilə bağlı Türkiyənin Uzunmüddətli Strategiyasının təhlili prizmasından iqlim sammitinin nəticələrini işıqlandırıblar. Türkiyənin media strukturları rəsmi Ankaranı kömürdən tamamilə imtina etməyə çağıran ölkədəki bir sıra ətraf mühit təşkilatlarının mövqeyini də işıqlandırıb.

Bundan başqa, Ukraynanın nüfuzlu KİV-ləri də Bakıda COP29-da əldə olunmuş razılaşmaya dair məqalələr dərc edib. ”Ukrinform”, ”RBC-Ukrayna”, informasiya agentlikləri, ”LB.ua”, ”Ekonomiçeskaya Pravda” və digər xəbər portallarında dərc olunan məqalələrdə COP29 razılşamasının tarixi əhəmiyyəti qeyd olunub.

Bildirilir ki, COP29 razılaşması iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyub. Yekun razılaşmaya əsasən, zəngin ölkələr 2035-ci ilə qədər yoxsul ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə kömək etmək üçün ildə ən azı 300 milyard dollar ayırmağa razılaşıblar. Bakı Maliyyə Məqsədi əhəmiyyətli artım nümayiş etdirərək inkişaf etməkdə olan ölkələrə 2035-ci ilə qədər 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsinin təmin edilməsi üçün yeni qlobal hədəf qoyur. Buraya əvvəlki 100 milyard ABŞ dolları həcmində hədəfi üç dəfə üstələyən 300 milyard ABŞ dolları həcmində yeni əsas maliyyə hədəfi daxildir.

Məqalələrdə COP29 razılşamasının strateji əhəmiyyəti qeyd olunub.